*https://doi.org/10.30546/114578.2025.11.5105*

# TƏLƏBƏYÖNÜMLÜ TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ METODLARI

**Günay Alıyeva**
*baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0000-0001-5780-039X*
*alıyevagunay@yahoo.com*

**Xülasə**

Tələbəyönümlü təhsil öyrənmə prosesinin mərkəzinə müəllimi deyil, birbaşa tələbəni qoyan yanaşmadır. Burada əsas məqsəd biliyi sadəcə ötürmək yox, tələbənin bu biliyi necə kəşf etməsini və tətbiq etməsini təmin etməkdir.

Tələbəyönümlü təhsildə tələbə passiv dinləyici deyil, prosesin fəal iştirakçısıdır. O, suallar verir, tədqiqat aparır və problemləri həll edir.Müəllim də öz növbəsində artıq "yeganə bilik mənbəyi" deyil, fasilitator (yönləndirici) və bələdçi rolundadır. Fərdi yanaşmada hər bir tələbənin öyrənmə tərzi, maraqları və sürəti fərqlənir və təhsil prosesi də bu fərqliliklərə uyğunlaşdırılır. Əzbərçilikdən uzaqlaşıb, "niyə?" və "necə?" suallarına cavab tapmağa üstünlük verilən tələbəyönümlü təhsil sistemində qiymətləndirmə tələbəni mükafatlandırmaq və ya cəzalandırmaq üçün deyil, onun inkişafını dəstəkləmək üçün istifadə olunur və müxtəlif qiymətləndirmə metodları yaradıcılıqla tətbiq olunur.

**Açar sözlər:** təhsil, tələbəyönümlülük, qiymətləndirmə, metod, fərdi yanaşma.

## ASSESSMENT METHODS IN STUDENT-CENTERED EDUCATION

**Gunay Alıyeva**
*Azerbaijan Sate Pedagogical Univversity*

**Abstract**

Student-centered education is an approach that places the student, rather than the teacher, at the center of the learning process. The main goal is not merely to transmit knowledge, but to ensure that students discover and apply this knowledge themselves.

In student-centered education, the student is not a passive listener but an active participant in the process. Students ask questions, conduct research, and solve problems. The teacher, in turn, is no longer the "sole source of knowledge," but acts as a facilitator and guide. Within an individualized approach, each student's learning style, interests, and pace differ, and the educational process is adapted to these differences. Moving away from rote memorization and prioritizing answers to the questions "why?" and "how?", assessment in a student-centered education system is used not to reward or punish

students, but to support their development, and various assessment methods are applied creatively.

**Key words:** education, student-centeredness, assessment, method, individualized approach.

## МЕТОДЫ ОЦЕНКИ В ОБРАЗОВАНИИ, ОРИЕНТИРОВАННОМ НА СТУДЕНТА

**Гюнай Алыева**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Образование, ориентированное на студента, это подход, в центре которого в учебном процессе находится обучающийся, а не учитель. Главная цель здесь не просто передать знания, а обеспечить, чтобы ученик сам искал и применял эти знания.

В ориентированном на студента образовании студент не является пассивным слушателем, становится активным участником процесса. Он задает вопросы, проводит исследования и решает проблемы. Учитель, в свою очередь, перестает быть «единственным источником знаний», а становится посредником и наставником. При индивидуальном подходе стиль обучения, интересы и темп каждого студента различны, и образовательный процесс адаптируется к этим различиям. В системе образования, ориентированной на студента, которая отходит от механического запоминания и ставит ответы на вопросы «почему?» и «как?», оценка используется для поддержки развития студента, а не для его поощрения или наказания, и различные методы оценки применяются творчески.

**Ключевые слова:** образование, ориентация на студента, оценивание, метод, индивидуальный подход.

### Giriş/Introduction

Bu gün "təhsilin keyfiyyətini yülsəltmək və onu müasir dünyanın standartlarına uyğunlaşırmaq üçün yeni pedaqoji texnlogiyaarın tətbiqi, dərsin "təkcə özünün elmi-nəzəri səviyyəsinə görə deyil, həm də pedaqoji konsepsiyasına − yeni pedaqoji təfəkkür ölçüləri ilə qurulmasına görə müasir (Ə.Əlizadə) olması hədəf kimi qarşıda durur" [Alıyeva, 2025:181]. Nəticəyönümlülük, şəxsiyyətyönümlülük, qiymətləndirmə meyarları, interaktiv təlim metodları və s. istər orta, istərsə də ali təhsil proqramlarında standartlar üzrə təlim nəticələrinin reallaşdırılmasında vacib komponentlərdir. Ali təhsil proqramlarında tələbəyönümlü yanaşmanın həyata keçirilməsi konsepsiyası və metodologiyası hələ 2018-2020-ci illərdə "Azərbaycanda ali təhsil sisteminin gücləndirilməsinə dəstək" adlı TVİNNİNQ layihəsinin "İnstitusional səviyyədə təhsil proqramlarının hazırlanması və nəzərdən keçirilməsi üzrə təməl parametrlərin daxil olduğu tələblərə əsaslanan Təhsil Proqramı konsepsiyasının hazırlanması və müzakirə

edilməsi" çərçivə sənədində əksini tapmışdır. Sənəddə təhsilin fundamental əsasını təşkil edən proqramlar, qiymətləndirmə, fəal tədris metodları, tələbələrin ali məktəbin həyatında və idarə edilməsində iştirakı, auditoriyadankənar mühit və s. ilə bağlı müddəalar tələbəyönümlülülkdə konstruktivist təhsil nəzəriyyələri ilə əlaqəli öyrənmə yanaşmasına xidmət edir. Tələbəyönümlü təhsildə təhsilalan təhsillənməsinə tam məsuliyyət daşıyır, onun təcrübəsi təhsil prosesinin "tərkib hissəsinə" çevrilir.

**Tələbəyönümlü təhsil anlayışı və əsas prinsipləri.** Müasir təhsil sistemində baş verən islahatlar və qlobal tendensiyalar təlim prosesində tələbənin roluna yenidən baxılmasını zəruri etmişdir. Ənənəvi müəllimmərkəzli yanaşmadan fərqli olaraq, tələbə yönümlü təhsil modeli öyrənən şəxsi təlim prosesinin mərkəzinə yerləşdirir və onu passiv bilik qəbul edən deyil, aktiv bilik yaradan subyekt kimi qəbul edir.

Tələbəyönümlü təhsil anlayışı tələbənin fərdi xüsusiyyətlərinin, maraqlarının, öyrənmə tərzinin və tempinin nəzərə alınmasını əsas prinsip kimi qəbul edir. Bu modeldə müəllimin rolu bilik ötürücüsü olmaqdan daha çox bələdçi, istiqamətverici və fasilitator funksiyasını yerinə yetirməkdir. Beləliklə, təlim prosesi qarşılıqlı əməkdaşlıq, dialoq və refleksiya üzərində qurulur.

Tələbəyönümlü təhsilin əsas prinsiplərinə aşağıdakılar daxildir:

– fərdiləşdirilmiş öyrənmə mühiti;
– tələbənin təlim prosesində fəal iştirakı;
– motivasiyanın və daxili marağın təşviqi;
– tənqidi və yaradıcı düşünmənin inkişafı;
– öyrənmə prosesinə məsuliyyətin tədricən tələbəyə ötürülməsi.

Bu yanaşma tələbənin yalnız akademik biliklər əldə etməsini deyil, eyni zamanda onun sosial, kommunikativ və reflektiv bacarıqlarının formalaşmasını təmin edir. Nəticədə təhsil prosesi daha mənalı, məqsədyönlü və dayanıqlı xarakter alır.

**Tələbəyönümlü təhsildə qiymətləndirmənin mahiyyəti.** Tələbəyönümlü təhsil modelində qiymətləndirmə anlayışı ənənəvi nəticəyönümlü yanaşmadan fərqli olaraq, öyrənmə prosesinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu kontekstdə qiymətləndirmə yalnız əldə olunan biliklərin ölçülməsi deyil, tələbənin inkişaf trayektoriyasını müəyyənləşdirən, onu öz öyrənməsini dərk etməyə və təkmilləşdirməyə istiqamətləndirən bir mexanizm kimi nəzərdən keçirilir.

Tələbəyönümlü qiymətləndirmənin əsas mahiyyəti ondan ibarətdir ki, qiymət özü məqsəd deyil, öyrənməni dəstəkləyən vasitədir. Bu yanaşmada tələbə qiymətləndirmə prosesinin passiv obyekti deyil, onun aktiv iştirakçısına çevrilir. Qiymətləndirmə nəticələri tələbənin güclü və zəif tərəflərini aşkara çıxarmağa, fərdi inkişaf ehtiyaclarını müəyyən etməyə xidmət edir.

Bu modeldə müəllim və tələbə arasında qiymətləndirmə ilə bağlı münasibətlər əməkdaşlıq və qarşılıqlı etimad əsasında qurulur. Müəllim tərəfindən təqdim olunan geribildirim tələbəni cəzalandırmaq məqsədi daşımır, əksinə, onun inkişafını stimullaşdırır və öyrənmə prosesində motivasiyaedici rol oynayır.

Beləliklə, tələbəyönümlü təhsildə qiymətləndirmə prosesin sonunda verilən yekun nəticə deyil, təlimin bütün mərhələlərində davam edən dinamik və inkişafyönümlü fəaliyyət kimi çıxış edir. Bu yanaşma tələbənin özünüqiymətləndirmə, refleksiya və məsuliyyət hissinin formalaşmasına mühüm töhfə verir.

**Tələbəyönümlü qiymətləndirmə metodları.** Yeni ali təhsil proqramlarında tələbələrin qiymətləndirilməsi meyarları və metodları dəyişmişdir. Təlim nəticələrinin əldə edilməsinə görə kreditlərin verilməsi də müvafiq qiymətləndirmələr nəticəsində müəyyənləşir. Tələbə təlim prosesinin özəyini təşkil etdiyi kimi, qiymətləndirmə prosesinin də özəyində olmalıdır. Buna görə də fənnin tədrisinə başlanan zaman tələbənin göstəricilərinin qiymətləndirilməsi aydın şəkildə müəyyən edilməli, tələbələrələ birgə razılaşdırlmalıdır.

Tələbəyönümlü təhsildə özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə tələbəlırin məsuliyyətinin və sərbəstliyinin artırılmasına, fənnin məzmununjun əlçatan və anlaşıqlı olmaısna, təlbəni passiv təhsilalandan aktiv təhsilalana çevimıəyə, subyektivlik pozisiyasının və müstəqil fikiryürütmə bacarıqlarının formalaşdırılmasına imkan yaradır. Özünüqiymətləndirmədə tələbə təlimdə irəliləyişinin qiymətləndirilməsinə cəlb olunur. Bu zaman o, təhsilə daha artı cəlb edilir, məsuliyyətli olur, motivə edilir. Pedaqoji ədəbiyyatda tələbələrin özünüqiymətləndirməyə cəlb olunması tələbələrin səmərəliliyinə və daxili motivasiyasına təsir göstərə bilər [Roberts, www/nvcc/edu|assessment/_]. Bu metod tələbəyə öz bacarıqlarında olan çatışmazlıqları görməyə imkan verir, diqqətini nəyə yönəltmək lazım olduğu, real hədəfi müəyyən etmək, növbəti mərhələyə nə vaxt keçmək qərarını qətiləşdirir.

Qarşılıqlı qiymətləndirmə − tələbələr əvvəlcədən müəyyən edilmiş meyarlar əsaslnda bir-birini qiymətləndirir. Bu qiymətləndirmə metodu qrup işi zamanı daha müvəffəqiyyətli olur. Alternativ olaraq, müəllim tələbələri əvvəlcədən qiymətləndirmə meyarları ilə tanış edir. Bu zaman aşağıdakı qiymətləndirmə metodlarından istifadə edilə bilər:

*Konseptual xəritələr* – tələbənin öyrəndiyi konsepsiyalar əsasında əlaqəlrin vizual təsvirini təmin edir. Xəritələr tələbələr yeni materialla tanış edildikdən sonra müəllimə tələbənin mövzunu mınimsdiyini ayxud səhv anladığını başa düşməyə kömək edir. Hər hansı bir mövzu ilə bağlı tələbəyə yarımçıq konsepsiya xəritəsi təqdim edilir və bunu tamamlamaq üçün tapşırıqlar verilir. Tamamlanmış xəritə auditoriyaya təqdim edildikdə müəllim də, tələbələr də tapşırığın düzgün yaxud səhv taamlandığını görür.

*Konseptual testlər* − hər hanı bir nəzəri məlumatın anlaşıldığını yoxlamaq üçün müəllim tərəfindən hazırlanan suallardır. Bu suallar adətən elmdə mübahisəli olan, tələbələrdə yanlış təsəvvürlıri aradan qaldırmağa xidmət edir. Tələəb müstəqil işləyərək cavabı tapır və yoldaşlarını inandırmağa çalışır. Müəllim cavabı təsdiqlədikdən sonra digər tələbələrin yanlış fikirləri müzakirə olunur.

*ePortfel* − tələbələrin fənn müddətində hazırladıqları yazılı tapşırıqlar, şəkillər, videolar və s. vasitələri saxlaya və nizamlaya bilən saxlancdır. Tələbələr mütəmadi

olaraq ePortfel-dən istifadə edərək təlim nəticələri barədə şəxsi mülahizələr yürüdürlər. Bu proses tələbəyə əvvəl gördüyü işə baxmaq, nə qədər öyrəndiyini, fənn üzrə nə qədər irəlilədiyini görməyə imkan verir [https://teachingcommons.yorcu.ca].

Videobloq formatında podkast layihəsi tələbələri vizual fayl yaratmaqla hesabat, sxem, diaqramlardan uzaqlaşdırıb real dünyaya, rəqəmsal tətbiqə həvəsləndirir və öyrənməni fəallaşdırır.

**Nəticə/Conclusion**

Aparılan təhlil göstərir ki, müasir təhsil sistemində tələbə yönümlü yanaşmanın tətbiqi təlim prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu yanaşma çərçivəsində qiymətləndirmə ənənəvi nəzarət və nəticəyönümlü mexanizm olmaqdan çıxaraq, tələbənin fərdi inkişafını dəstəkləyən, onun öyrənmə prosesində fəal iştirakını təmin edən əsas vasitələrdən birinə çevrilir.

Tələbəyönümlü təhsildə qiymətləndirmə tələbənin bilik və bacarıqlarının yalnız yekun səviyyəsini deyil, eyni zamanda öyrənmə prosesindəki irəliləyişini, səylərini və inkişaf dinamikasını əks etdirir. Bu isə tələbədə özünüqiymətləndirmə, refleksiya və məsuliyyət hissinin formalaşmasına şərait yaradır. Belə bir mühitdə tələbə öz öyrənməsinə tənqidi yanaşmağı, güclü və zəif tərəflərini dərk etməyi və inkişaf istiqamətlərini müəyyənləşdirməyi öyrənir.

Araşdırma nəticəsində müəyyən olunur ki, tələbəyönümlü qiymətləndirmə metodlarının tətbiqi təlim prosesində motivasiyanın artmasına, akademik stressin azalmasına və öyrənmənin daha mənalı xarakter almasına imkan yaradır. Eyni zamanda, bu yanaşma müəllim-tələbə münasibətlərinin əməkdaşlıq və qarşılıqlı etimad əsasında qurulmasına zəmin yaradır.

Nəticə etibarilə, tələbəyönümlü təhsildə qiymətləndirmənin səmərəli təşkili təhsilalanların intellektual və şəxsi inkişafına müsbət təsir göstərməklə yanaşı, təhsilin ümumi keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu baxımdan, təhsil prosesində qiymətləndirməyə inkişafyönümlü və çevik yanaşmaların tətbiqi müasir pedaqoji praktikanın əsas prioritetlərindən biri kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Alıyeva, G. (2025). İngilis dili dərslərində oyun-tapşırıqlardan istifadə metodikası / “Filologiya və pedaqogika: elmi araşdırmalar”. – c.2, №1. – s.179-186.

2. Hüseynzadə, G. (2016). İngilis dili fənni üzrə qiymətləndirmə vasitələrinin hazırlanması təcrübəsindən. – Bakı: “Vahid-M” MMC. – 172 s.

3. Lile, R., Bran, C. (2014). The assessment of learninq outcomes. − Prosedia-Social and Behavarial Sciences 163. – p.125-131.

4. Identifying Learninq Outcomes and selectinq Assessment Tasks. – York University [Resources for writinq learning outcomes &Resources for creating assessment tasks] https://teachingcommons.yorcu.ca/resources elearning/elearning/identifing-learning-outcomes-and-selecting-assasment-tasks/

5. Roberts, J. Methods for Assessing Student Learning Outcomes. Office of Institutional Research, Planning and Assessment, Morthern Virginia Community College. www/nvcc/edu|assessment/_docs/PS4.methodsforassessingSLOs1009.pdf

6. Savicliene, I. Desingnig of student learning achievement evalution. The quality of Higher education, 2011/8. www.vdu.lt/cris/bitstream/20.500.-12259/699/1/ISSN2345-0258_2011_N_8.PG_74-93.pdf

7. 10 Innovative Learning Strategies for Modern Pedagogy. www.teachhought.com/the-future-of-learning/ 10-innovative-learning-strategies-for-modern-pedagogy

**Məqalə tarixçəsi**
*Daxil olub* *17.11.2025*
*Qəbul edilib* *04.12.2025*
*Nəşrə tövsiyə edib* *Nazilə Abdullazadə*
*pedaqogika üzrəfəlsəfə doktoru, dosent*